*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 79-83* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.2.79*

# Feminist ədəbi tənqid: mətnə feminist yanaşma

**Güntəkin Musayeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: guntekin87@mail.ru

**Annotasiya.** Feminizm siyasi, mədəni və ya iqtisadi baxımdan cəmiyyətdə cinslər arasında ayrı-seçkiliyi rədd edən və qanuni yollarla qadınların hüquqlarının müdafiəsini təmin edən ictimai-siyasi hərəkatdır. Feminist ədəbi tənqid isə feminizm və feminist nəzəriyyələr, ideologiyalar əsasında yaranan ədəbi təhlildir. Feminist ədəbi tənqidin əsas məqsədi həm feminist ideologiyadan, həm də ədəbiyyatdan bəhrələnməklə qadın mətnlərinin forma və məzmun xüsusiyyətlərini, ədəbiyyat tarixində yoxa çıxmış qadın yazıçılarını, əsərlərdəki qadın obrazlarının tip və xarakterlərini, xüsusiyyətlərini araşdırmaqdır. Təqdim olunan məqalədə ilk olaraq ədəbi tənqid metodlarından biri olan feminist ədəbi tənqid haqqında məlumat verilmiş və daha sonra feminist ədəbi tənqidin oxucu və yazıçı olaraq qadına aid ədəbi tənqid metodları tədqiq edilmişdir.
**Açar sözlər:** feminizm, feminist ədəbi tənqid, feminist mətn, qadın ədəbiyyatı

**Məqalə tarixçəsi:** göndərilib – 12.09.2023; qəbul edilib – 25.09.2023

# Feminist literary criticism: A feminist approach to the text

**Guntekin Musayeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: guntekin87@mail.ru

**Abstract.** Feminism stands as a socio-political movement committed to eradicating gender-based discrimination across political, cultural, and economic domains. Its fundamental purpose lies in the vigilant protection of women's rights through legal avenues. Concurrently, feminist literary criticism constitutes a rigorous form of literary analysis grounded in feminist principles, feminist theories, and ideologies. The core objective of feminist literary criticism is the meticulous examination of the structure and essence of women's texts. It endeavors to illuminate the often-overlooked contributions of female writers in the annals of literary history and scrutinize the nuanced portrayals of female characters within literary works. This analytical framework adeptly blends feminist ideology with established literary theories. The present article commences by elucidating the concept of “feminist literary criticism” as a rigorous methodological approach in literary analysis. Subsequently, it delves deeply into the sophisticated literary techniques associated with feminist literary criticism, offering profound insights into the multifaceted roles of women as both readers and writers within the realm of literature.
**Keywords:** feminism, feminist literary criticism, feminist text, woman literature

**Article history:** received – 12.09.2023; accepted − 25.09.2023

## Giriş / *Introduction*

Feminist ədəbi tənqid feministik nəzəriyyə və siyasi baxımdan meydana gələn ədəbi təhlildir. Feminist ideologiya ilə meydana gəlmiş ədəbi mətnlərin tənqidi və qiymətləndirilməsi ədəbiyyatda elmi problem yaratmış və bu mətnlərin araşdırılması üçün yeni bir sahə kimi feminist ədəbiyyatşünaslıq yaranmışdır. "Ümumilikdə feminist tənqid sosial ideologiyalara və təcrübələrə diqqət yetirdiyi halda, feminist ədəbi tənqid isə bu ideologiya və təcrübələrin ədəbi mətnlərə necə təsir etməyini araşdırır" [6, s.11]. Feminist ədəbi tənqidin əsas məqsədi həm feminist ideologiyadan, həm də ədəbiyyatdan bəhrələnməklə qadın mətnlərinin forma və məzmun xüsusiyyətlərini, ədəbiyyat tarixində yoxa çıxmış qadın yazıçılarını və əsərlərdəki qadın obrazlarının tip və xarakterlərini, xüsusiyyətlərini araşdırmaqdır. "Feminizm əsas məqsədi cəmiyyətdə qadının statusunu yüksəltmək, qadınlara da kişilər kimi eyni hüquqların verilməsini tələb etmək və əldə etdiyi hüquqlardan istifadə etməkdir. Ədəbiyyat isə bu formalaşma dövründə qadınların tərəfində mübarizədə iştirak edir. Yaxud hərəkatın nümayəndələri tərəfindən onların təlimlərini çatdırmaq üçün ən asan üsul ola bildiyi üçün istifadə olunur" [4].

Daim inkişaf edən feminizm müasir həyatın inkişafı və dəyişməsi ilə paralel olaraq öz qaydalarını da inkişaf etdirir, həyatın bütün istiqamətlərində öz tələblərini, qaydalarını yeniləyir və artırır. Feminist ədəbi tənqid isə bu inkişafların, dəyişmələrin ədəbiyyatda əks olunması ilə inkişaf edən bir prosesdir. Feminist düşüncənin inkişafı prosesində feminist ədəbiyyat meydana gəlmişdir. Beləliklə, feminist ədəbiyyatın inkişafı və yayılması ilə əlaqədar bu ədəbiyyatı tədqiq edən "feminist ədəbi tənqid" anlayışı meydana gəlmişdir.

## Əsas hissə / *Main part*

Feminist ədəbi tənqid 1960-cı illərdə Amerika, İngiltərə və Fransada ictimai və siyasi mübarizə sahəsi kimi feminist hərəkatların nəticəsində meydana gəlmişdir. Feminist ədəbi tənqid Virciniya Vulfun ədəbi əsərləri oxumanın ikili bir baxışın tələb etməsi fikri ilə yaranmağa başlayır. Beləliklə, "Vulf qadının qələmi əlinə alar-almaz ilk fərq edəcəyi şeyin özünə, qadına aid bir dilin tapılmadığını və kişilərin xeyrinə qurulmuş nizama qarşı çıxmaqla patriarxal quruluşun ənənəvi dil sistemini və simvolik nizamı poza biləcəyini ortaya qoymuşdur" [6, s.19].

Maggie Humm,feminist ədəbi tənqidin araşdırdığı problemləri dörd qrupa ayırır. "Birincisi, kişi ədəbiyyatı tarixinin, kişi mətnlərinin yenidən nəzərdən keçirilməsi, patriarxal fərziyyələrin aşkarlanması və bu mətnlərdə qadınların sosial, mədəni və ideoloji normalara uyğun necə təmsil olunduğunun göstərilməsidir; ikincisi, gizlin qalan qadın yazıçılarının üzə çıxarılmasıdır. Feminist tənqidçilər diqqətdən kənarda qalan qadın mətnlərinə və əvvəllər qadınların ədəbiyyatda qəbul edilməyən sözlü mədəniyyətinə əhəmiyyət verən ədəbiyyat tarixi yaratdılar; üçüncüsü, feminist tənqid oxuculara yeni üsullar və fərqli tənqid metodları göstərməklə "feminist oxucu" problemi ilə üzləşir. Bu üsulla tənqiddə haqqıyla qiymətləndirilməyən qadınların mətndəki hissləri, duyğuları düzgün şəkildə göstərilməyə başlanılır; dördüncüsü, feminist tənqidin yeni bir yazı və oxuma vəhdəti yaratmaqla feminist oxucuların olmasına imkan yaratmaq" [6, s.29].

Tədqiqatçı Eleyn Şoulter [3, s.295] və Berna Moran [1, s.250] feminist ədəbi tənqidi mətnə yanaşma baxımından iki yerə ayırırlar: oxucu olaraq qadına aid feministik ədəbi tənqid və yazıçı olaraq feministik ədəbi tənqid.

1) Oxucu olaraq qadına aid feminist ədəbi tənqid. Bu üsulla mətnin qadın oxucu tərəfindən oxunması, yaxud oxucunun cinsiyyətindən asılı olmayaraq mətnə qadın gözü ilə baxılması başa düşülür. Feministlər "Qadınlıq" hissini bioloji olaraq qazanılan bir xüsusiyyət kimi dəyərləndirmirlər. Mədəni və şüurlu şəkildə qazanılan bir anlayış kimi baxırlar. Bu səbəblə əsərin təhlil edilməsində insanın təhsili, dünyagörüşü, yaşadığı dövr və cəmiyyət böyük rol oynayır. Bu mülahizəni ilk dəfə irəli sürən "İkinci cins" kitabının müəllifi Simon de Bovuardır: "Sən qadın kimi doğulmursan, qadın olursan. İnsanın dişisinin cəmiyyət içərisindəki rolunu bioloji, psixoloji, iqtisadi istiqamətlər müəyyən etmir" [8]. Əslində, bu fikirlə tam şəkildə razılaşmaq olmaz. Çünki qadının anadangəlmə özünəməxsus bioloji və psixoloji xüsusiyyətləri vardır ki, bu fərqlilik də istər-istəməz mətnə də təsir edir.

Qadını bir oxucu olaraq qəbul edən feminist ədəbi nəzəriyyənin əsas fəlsəfəsi kişilər tərəfindən yazılan mətnlərin kişi düşüncəsinin, kişi bədii təfəkkürünün məhsulu olduğunu və bu mətnlərdə gender asimmetriyasının müxtəlif şəkildə ön plana çıxdığını göstərməkdir. Bu cür mətnlərdə kişi yazıçılar qadınların nə düşündüyünü, nə hiss etdiyini diqqətə almadan öz bədii təfəkkürlərinə uyğun qadın obrazları, bədii təsvir vasitələri, surətlər, obrazlar, personajlar yaradırdılar. Qadınlar yalnız kişi yazıçıların təsvir etdikləri bir obyektə çevrilmişdilər. Dünyanın qadın gözü ilə əks etdirilməsi unudulmuşdur, hətta arxa plana keçmişdir. Virciniya Vulfa görə, "qadınlar yalnızca kişilərin yaratdığı ədəbiyyatda mövcud olsaydı, onları olduqca əhəmiyyətli varlıqlar kimi xəyal edərdik: fərqli və cəsarətli, ehtişamlı və alçaq, hədsiz gözəl və hədsiz çirkin, bir kişi qədər ali, bəzilərinin fikrinə görə daha ali. Fəqət bunlar ədəbiyyatdakı qadınlardır" [9, s.81].

Feminist tədqiqatçılardan M.Gilbert və S. Qubar kişi mətnlərində iki qadın tipi olduğunu qeyd edirdilər: "evdəki mələk" və "canavar". "Sandra M. Gilbert və Susan Qubar "Çardaqdakı dəli qadın" əsərində göstərir ki, kişi yazıçılar patriarxal qaydalara tabe olan dürüst, namuslu, itaətkar tipləri "evdəki mələk", kişi hökmranlığına tabe olmayan, öz ayaqları üstündə duran azad qadınları isə "canavarlar" kimi qələmə alırdılar" [1, s.251]. Gilbert və Qubarın "canavar" və "evdəki mələk" adlandırdıqları qadın tiplərini türk tədqiqatçısı Berna Moran isə "ölümcül" qadın və "qurban" qadın adlandırır. Moranın fikrincə, qurban qadın tipi namuslu, təvazökar, itaətkar, məsum, öz evinə, ərinə, uşaqlarına sadiq gənc qızlar və qadınlardır. Bu tip qadınlar kişi yazıçılar tərəfindən ideallaşdırılan, kişi hökmranlığına öz istəyi iilə tabe olan gözəl və mələk xasiyyətli qadınlardır. Məsələn, Cəfər Cabbarlının "Aslan və Fərhad" hekayəsində Züleyxa, Hüseyn Cavidin "Topal Teymur" pyesində Dilşad kimi obrazlar "evdəki mələk" qadın tipinə aiddir. Oxucu olaraq qadına aid feminist ədəbi tənqid kişi yazıçıları tərəfindən yaradılan bu qadın tiplərilə qadınları necə gördüklərini, qadın haqqında fikir və düşüncələrini, cəmiyyətdə ideal qadın xüsusiyyətlərini, patriarxal quruluşun necə olduğunu ədəbiyyat vasitəsilə göstərmək baxımından böyük əhəmiyyət kəsb edir.

"Ölümcül qadın" tipi isə müstəqilliyi, azadlığı sevən, şəxsi maraqlarını ön plana çıxaran, kişilərin üstünlük təşkil etdiyi cəmiyyətdə hakimiyyətə üsyan edən, özlərinə müəyyən edilmiş həyat tərzini qəbul etməyən qadınlardır. Bu tip qadınlar oxucuya şeytan kimi təqdim olunur, hər cür hiylələrə, yalanlara əl atırlar, hətta qatil belə ola bilirlər. Ölümcül qadın tipi Hüseyn Cavidin "Afət" pyesində Afət, "Səyavuş" pyesində Südabə, İlyas Əfəndiyevin "Körpüsalanlar" pyesində Səriyyə, Anarın "Beş mərtəbəli evin altıncı mərtəbəsi" romanında Təhminə obrazları buna misal ola bilər.

2) Yazıçı olaraq qadına aid feminist ədəbi tənqid. Bu yanaşmada qadın yazıçı kimi dəyərləndirilir. Qadın müəlliflər öz əsərlərində qadınların ictimai-sosial durumunu, ailədaxili vəziyyətini, psixologiyasını təsvir edirlər. Eyni zamanda qadınların kişilərdən yazıçı kimi fərqli təhkiyəyə və bədii düşüncəyə sahib olub-olmadığı da təhlil olunur. Kişi hökmranlığının üstünlük təşkil etdiyi ədəbiyyatda qadın yazıçılarının işi çox çətin idi. "Qatı patriarxal cəmiyyətin mərkəzində gördüklərini olduğu kimi, əzilib-büzülmədən yazmaq, bütün bu tənqidlərlə üzləşmək üçün necə böyük iradə, necə böyük dürüstlük tələb olunurdu". Bu səbəbdən qadın yazıçılar kişilərin üstünlük təşkil etdiyi ədəbiyyat məkanında kişi yazıçılar kimi əsərlərini yazmağa başladılar, hətta bu prosesdə kişi

təxəllüslərindən də istifadə edərək öz şəxsiyyətlərini gizlədirdilər və məhz bu yolla məşhurlaşmağa başladılar. Ümumiyyətlə, mətnin müəllifini bilmədikcə onun kim tərəfindən yazılmasını təyin etmək çətindir. “Yazıçının cinsiyyəti ilə mətnə xas cinsiyyəti bir-birinə qarışdırmamaq lazımdır. (...) müasir dövrə qədər qadınlar qaydaları pozmadan kişilər kimi yazdılar” [7]. Qadın yazıçılar bu cəmiyyətin yetişdirdiyi insanları olduğu üçün qadın kimi keçirdiyi acılar da, hisslər də, problemlər də və çətinliklər də eynidir. Bu baxımdan onların bədii düşüncələri də əsərdə əks olunmaq baxımdan demək olar ki, oxşardır. Ona görə də qadın yazıçılarının özünəməxsus yazı üslubu formalaşır. Bu üslubun da yaranmasının əsas səbəbi qadınların uzun müddət cəmiyyətdə eyni təzyiqlərə, davranışlara və rəftarlara məruz qalmasıdır. Artıq mətnlərdə qadına aid mövzular, formalar, problemlər gündəmə gətirilirdi. Ərəb feminist yazıçısı Selva Bekrin qeyd etdiyi kimi, “Qadınların problemləri ancaq qadınlar yazdığı müddətdə həll oluna bilər” [5]. Yəni qadın bu problemlərdən yalnız yazdığı mətnlə azad ola bilər. Beləliklə, qadın həm ədəbiyyat sahəsində, həm də sosial sahədə müsbət mənada təmsil olunmağa başlanır.

Feminist ədəbi tənqidçilər qadını təkcə yazıçı və oxucu olaraq deyil, eyni zamanda təhkiyə və dil cəhətdən də təhlil etməyə başladılar. Artıq cəmiyyətdə “kişi dili”, “kişi təhkiyəsi” stereotipləri qırılır və yeni “qadın dili”, “qadın təhkiyəsi” yaradılır. Qadın patriarxal ailə quruluşu çərçivəsindən çıxaraq yenidən təsnif edilir. Feminist ədəbiyyat adının ictimai-sosial durumunu, ailədaxili vəziyyətini olduğu kimi təsvir etməklə, XIX əsr qadın oxucularına özlərinə kənardan baxmaq imkanı yaratmışdır.

Amerikalı feminist tədqiqatçı E.Şoulter “Feminist poetika haqqında” məqaləsində İngilis roman tarixindəki qadın yazıçılarının inkişafını üç mərhələyə bölür:

1) “Feminin” mərhələsi (1840-1880). Bu dövrün qadın yazıçıları Elizabet Qaskel və Corc Eliotdur. Bu dövrün qadın yazıçıları kişi yazıçılarını təqlid edirdilər. Kişi yazılarının qadın haqqındakı düşüncələrini qəbul edərək öz əsərlərini qadın adları ilə yox, kişi adları ilə təqdim edirdilər.

2) “Feminist” mərhələsi (1880-1920). Bu dövrün qadın yazıçıları Elizabet Robins və Oliv Şraynerdir. Artıq bu dövrdən başlayaraq feminist mətnlər yaranmağa başladı. Bu radikal feministlər öz əsərlərində şüurlu şəkildə kişi dəsti-xətti ilə yazmaq ənənəsindən əl çəkərək, qadınların məruz qaldıqları haqsızlıqları, onlara edilən zülmləri feminist mövqedən yazmağa başladılar.

3) “Qadın” mərhələsi (1920-ci ildən bu günədək). Bu dövrün ən məşhur romançıları Rebbeka Uest, Katrin Mansfild və Doroti Riçardsondur. Qadın yazıçılar bu dövrdən başlayaraq kişi yazıçılarını nəinki təqlid etmir, həm də qadınlara bədii şəkildə yanaşaraq, qadının estetik cəhətlərini araşdırmağa və öz əsərlərində əks etdirməyə başladılar. Bütün bu tədqiqatlar qadınlarda “ədəbi kimlik” yaratmağa kömək etdi” [2].

## Nəticə / *Conclusion*

Feminist ədəbi tənqid qadınla bağlı müxtəlif nəzəriyyələrlə, fəlsəfi görüşlərlə, ideologiyalarla da maraqlanır. Bu nəzəriyyələrdən liberal feminizm, marksist feminizm və radikal feminizm əsas feministik nəzəriyyələrdir. Feministik hərəkat ilə ortaya çıxan bu nəzəriyyələrin ortaq cəhətləri qadın olsa da, dövrləşmə və irəli sürdükləri tezislər baxımından bir-birindən fərqlənir. Liberal feminizm rasionalizm və pozitivist düşüncədən təsirlənən ilk feministik nəzəriyyədir. Liberal feministlər gender bərabərsizliyinə qarşı çıxaraq hər iki cinsin bərabər hüquqa malik olduğunu müdafiə edirlər. Marksistlər qadınların əzilməsinin səbəbini sinfi ayrı-seçkiliklə əlaqələndirirlər. Onlara görə qadının əzilməsinin səbəbi kapitalizmdir. Ancaq bu sistem ləğv olunub sosialist sistemə keçdikdən sonra qadınlar iqtisadi cəhətdən kişilərdən asılı olmadan bərabər hüquqa malik olacaqlar. Radikal feminizmə görə isə qadınların ailə və cəmiyyət içərisində əzilməsinin əsas səbəbi patriarxal quruluşdur. Beləliklə, feminist ədəbi tənqid müxtəlif yanaşmalarla, nəzəriyyələrlə araşdırılaraq elmi-nəzəri

tədqiqata cəlb olunmuşdur. Feminist tədqiqatlar, feminist ədəbi tənqid, feminist mətnlər, qadın ədəbiyyatı kimi anlayışlar bu tədqiqatın ayrılmaz hissəsinə çevrilmişdir.

**Ədəbiyyat / *References***


1. Berna Moran - Edebiyat Kuramları ve Eleştiri | Burak Bilgiç - Academia.edu: [Elektron resurs].
2. (DOC) Towards Feministic Poetics Elaine Showalter Introduction | selvi backia - Academia.edu: [Elektron resurs].
3. https://www.academia.edu/7611246/Feminist_Edebiyat_Ele%C5%9Ftirisi:[Elektron resurs].
4. https://www.arsivbelge.com/yaz.php?sc=2670 : [Elektron resurs]
5. https://www.researchgate.net/publication/329519660_Arap_Feminist_Yazar_Selva_Bekr%: [Elektron resurs].
6. Humm, M. Feminist Edebiyat Eleştirisi, Çev: Gönül Bakay. – İstanbul: Say Yayınları, – 2002. – 416 s.
7. (PDF) “How To Read” instead of “What To Read”: Female Authors In Turkish Literature As Objects/ Sources Of Feminist Critism | Ayşegül Yaraman - Academia.edu: [Elektron resurs].
8. SIMONE DE BEAUVOIR O KADIN “İkinci Cins” - PDF Ücretsiz indirin (docplayer.biz.tr): [Elektron resurs].
9. Vircinya Vulf. Şəxsi bir otaq. – Bakı: TEAS Press Nəşriyyat evi, – 2019. – 216 s.


## Феминистская литературная критика: феминистский подход к тексту


**Гюнтекин Мусаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: guntekin87@mail.ru



**Резюме.** Феминизм – это общественно-политическое движение, обеспечивающее защиту прав женщин законными путями и отрицая дискриминацию между полами в обществе с точки зрения политических, культурных или же экономических вопросов. Феминистская литературная критика – это литературная аналитика, созданная на основе феминизма и феминистских теорий и идеологий. Основная цель феминистской литературной критики – это исследовать тип и особенности женских образов в произведениях и ушедшие писательницы в истории литературы, а также особенности формы и контента женских текстов, пользуясь литературой, включая феминистские идеологии. В представленной статье в первую очередь дана информация о феминистской литературной критике, которая является одним из методов литературной критики. Далее были исследованы литературные методы, касающиеся женщин как писательниц и читательниц феминистской литературной критики.


**Ключевые слова:** феминизм, феминистская литературная критика, феминистский текст, женская литература